**AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI**

**AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI**

7 may 2024-cü ildə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Belarus Dövlət Universiteti və Özbəkistan Xorazm Mamun Akademiyasının birgə təşkilatçılığı ilə Ulu öndər Heydər Əliyevin anadan olmasının 101-ci ildönümünə həsr olunmuş **"Yaşıl dünya: sosial-iqtisadi transformasiya"** mövzusunda beynəlxalq elmi-praktik konfrans keçiriləcəkdir.

Konfransın keçirilməsində əsas məqsəd yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqlində Azərbaycanın enerji siyasətinin strategiyasını dəstəkləmək, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində yeni təkliflərlə çıxış etmək, ekoloji balansın, ekosistemin qorunmasına, iqlim dəyişmələrinin qarşısının alınması istiqamətində dəyərli və elmi əsaslandırlımış töhfə verə biləcək fikirləri müzakirə etməkdir.

Konfransa təqdim olunmuş və Təşkilat komitəsinin müsbət rəy verdiyi məruzələrin mətnləri xüsusi topluda AƏSMA-nın saytında yerləşdiriləcəkdir və link iştirakçılara göndəriləcəkdir. Məruzə mətnlərinin topluda yerləşdirilməsi üçün müəlliflərin konfransda iştirak etməsi vacibdir.

**Panel müzakirələr**

1. **İqtisadi idarəetmə**
2. **İKT və ekologiya**
3. **Sosial və humanitar sfera**

**Konfransın işçi dilləri:** Azərbaycan, türk, ukrain, rus, ingilis

Məruzələrin təqdim olunmasının son tarixi: **22 aprel 2024-cü il**

Məruzələri təşkilat komitəsi tərəfindən qəbul edilmiş şəxslər məlumatlandırılacaq.

**Məruzə mətnlərinin tərtibinə qoyulan tələblər:**

- müəllif(lər)in adı, soyadı, ata adı, e-mail ünvanı, təmsil etdiyi ölkə və müəssisənin adı - 12 pt, tünd rəngdə, (səh. yuxarısında sağda);
- məruzələrin adı - 12 pt, baş hərflərlə, tünd rəng, ortada;
- məruzələrin həcmi – **5-7 səhifə**, ədəbiyyat siyahısı daxil olmaqla;
- məruzələrin mətni- Times New Roman, 12pt ilə; yuxarıdan – 2sm, aşagıdan -2 sm, soldan -2 sm, sağdan -2 sm; sətirlərarası interval – 1;

- ədəbiyyata istinadlar mətn daxilində (məs.: Şabanov, 2017:15) və ya [1, s.15-17] verilir, sonda ədəbiyyat əlifba sırası ilə düzülür və **nömrələnir.**
- Açar sözlər - 5-7 söz
- Məruzələrə yazıldığı dildə **50 sözdən** ibarət **xülasə** əlavə edilməlidir.

Məruzələr bu e-mailə göndərilməlidir: iqtisadiyyat, idarəçilik sahəsi üzrə ismaylov1953@mail.ru(Tel:+994 50 583-33-53), informasiya-kommunikasiya texnologiyaları, ekologiya sahəsi üzrə niyar61@list.ru (Tel:+994 70 836 00 76) və sosial-mədəni sahə üzrə zeynaddin.shabanov@gmail.com (Tel:+994 50 631-57-90)

Konfransın Təşkilat komitəsinin ünvanı: Bakı şəhəri, Azadlıq prospekti 181, Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası. Əlaqə telefonları: (+994 12) 563-06-88